# DOQQUZUNCU SİNİFİN KİMYA KURSUNDA «METALLURGİYA. ÇUQUN VƏ POLAD İSTEHSALI» MÖVZUSUNUN TƏDRİSİ PROSESİNDƏ KİMYA İSTEHSALATINA DAİR ANLAYIŞLARIN FORMALAŞMASI METODİKASI

**A.C. Quliyev, S.E. Əyyubzadə**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir elmi-texniki tərəqqi dövründə elm və təhsilin istehsalatla əlaqəsi sürətlə inkişaf edir. Respublikamızda həyata keçirilən yeni təhsil konsepsiyası məktəblərdə şagirdlərin yalnız müəyyən həcmdə bilik almalarını deyil, həm də onların aldıqları bilikləri tətbiq etmək bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutur. Bununla əlaqədar olaraq məktəblərdə təlim və tərbiyyənin keyfiyyətinin yüksəldilməsi zərurəti yaranmışdır.

Orta məktəbin kimya kursunda şagirdlərin kimya istehsalatına dair zəruri biliklərə malik olmaları üçün geniş imkanlar mövcuddur. Belə ki, VII sinifin dərsliyində «Oksigen», «Hidrogen», «Su.Məhullar», VIII sinifin dərsliyində «Katalizator və katalitik reaksiyalar», «Oksidləşmə-reduksiya reaksiyaları», «Elektroliz» və s. mövzularda şagirdlərə müxtəlif maddələrin və kimyəvi reaksiyaların insan fəaliyyətinin müxtəlif sahələrində (sənaye, kənd təsərrüfatı, təbabət və s,) tətbiqinə dair müəyyən biliklər verilir. Lakin kmya istehsalatına dair zəruri biliklərin əsası IX sinifin kimya kursunda qoyulur.

Məktəb kimya kursunda kimya istehsalatının əsaslarının öyrənilməsi şagirdlərin əmək tərbiyyəsi, peşə yönümü və elmi dünyagörüşünün formalaşmasına şərait yaradır. Kimya dərslərində kimya istehsalatının öyrənilməsi təhsilin məqsəri və vəzifələri ilə müəyyən olunur. Burada istehsalata dair biliklərin vahid sistemdə veilməsi nəzərdə tutulur.

Orta məktəbdə IX sinifin kimya proqramında «Əlavə yarımqrup metalları. Metallurgiya» mövzusunun öyrənilməsinə 8 saat ayrılmışdır. «Metallurgiya. Çuqun və polad istehsalı» mövzusunun altıncı dərsdə tədris olunması planlaşdırılmışdır. Bu mövzuda şagirdləin öyrənmələri üçün verilən tədris materialında kimya istehsalatının əsas prinsiplərinin qavranılması anlayışlar sistemi vasitəsi ilə reallaşır. Kimya müəllimi hər bir mövzunun təhsil vəzifəsini müəyyən edərkən birinci növbədə kimya istehsalatının anlayışlar sisteminə əsaslanmalıdır. Bu sistemə xammal və onun xarakterstikası (xassələri, tərkibi, tapıldığı ərazi, hazırlanması), istehsalat məhsulu və onun xarakteristikası (tərkibi, quruluşu, xassələri, xalq təsərrüfatında tətbiqi), məhsul istehsalında istfadə olu-

nan kimyəvi reaksiyalar, onların qanunauyğunluqları (dönərliyi, dönməyənliyi, getməsinin optimal şəraiti və s.), istehsalatın əsas mərhələləri( hər bir mərhələnin texnoloji rejimi və onun optimallaşdırılması), materiallar və aparatların konstruksiyası, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi və s. daxildir. Sistemə daxil olan anlayışlar bloku arasında əlaqə mövcuddur. Hər hansı istehsalat növü üçün ardıcıllıq müxtəlif ola bilər. Burada yalnız səbəb-nəticə əlaqələrinin gözlənilməsi vacibdir. Müəllim istehsalat xrakterli mövzuların tədrisində kimya kursundan məlum olan anlayışlarla yeni anlayışları əlaqələndirməklə şagirdlərdə kimya istehsalatınının ümümi anlayışlar sistemi haqqında təsəvvürləri inkişaf etdirir.

Kimya istehsalatına dair anlayışların formalaşmasında fəndaxili və fənlərarası əlaqələr müstəsna əhəmiyyətə malikdir. Belə ki, «Metallurgiya. Çuqun və polad istehsalı» mövzusunun öyrənilməsində müəllim kimyəvi reaksiyalar, metallar və onların xassələri, ərintilər və s. haqqında şagirdləin malik olduqları biliklərə istinad edir. Belə ki,texnoloji aparatların öyrədilməsində fizika ilə, kənd təsərrüfatının kimyalaşdırılmasında biologiya ilə əlaqələndirilir.

Müəllim dərsə hazırlaşarkən mövzunun təhsil, inkişafetdirici və tərbiyəedici vəzifələrini müəyyən müasir pedaqoji texnologiyalar vasitəsilə şagirdlərin dərketmə qabiliyyətlərinin aktivləşdirilməsi şəraitində təlim prosesini həyata keçirir. Belə ki, «Metallurgiya. Çuqun və polad istehsalı» mövzusunun təhsil vəzivəsinə şagirdlərdə metallurgiya anlayışı əsasında kimya istehsalatının əsas prinsipləri, çuqun və polad istesalının texnoloji posesləri, çuqunun və poladın tərkibi, quruluşu və xassələri haqqında mükəmməl biliyə malik olmalarını təmin etmək, əsas bilikləri ayırd etmək və yadda saxlamaq bacarıqlarının təkmilləşdirilməsi, çuqun və poladın insan həyatında əhəmiyyətinə dair təsəvvürləri formalaşdırmaq, kimya istehsalatına dair hesablama məsələlərini həll etmək bacarığını təkmilləşdirmək aiddir. İnkişafetdirici vəzifəsi təqdim olunan informasiyanı analiz etmək bacarıqlarını təkmilləşdirmək, çuqun və poladın tərkibi ilə onların xassələri arasında səbəb-nəticə əlaqələrini müəyyən etmək, müəyyən şəraitlə əlaqəli olan məsələləri həll etmək bacarıqlarının inkişaf etdirilməsi, tədqiqat xarakterli məsələləri həll etmək bacarıqları və vərdişlərin təkmilləşdirilməsidir. Tərbiyəedici vəzifəsinə elmi dünyagörüşünün formalaşması, şagirdin özünün və başqalarının əməyinə hörmət etməsi, dərs vaxtından səmərəli istifadə və tədris prosesində cürətli olmaq bacarığının təkmiləşdirilməsi və s. aiddir.

Burada «Metallurgiya. Çuqun və polad istehsalı» mövzusunda dərs nümunəsinin qısa icmalını veririk.

**Mövzu: «Metallurgiya. Çuqun və polad istehsalı»**

Məqsəd:

Şagird:

1.Metallurgiyanı xarakterizə etməyi bacarır

2.Metallurgiya proseslərinin mərhələli olduğunu dərk edir

3. Metallurgiyanın mərhlələrinə dair nəticə çıxarmağı bacarır

4. Qara və əlvan metallurgiyanı fərqləndirir.

5. Çuqun istehsalının texnoloji proseslərini izah edir

6. Domna peçində gedən kimyəvi reaksiyaların mahiyyətini izah etməyi bacarır

7. Çuqunun tərkibi ilə xassələri arasında əlaqəni izah edir

8. Polad istehsalında tətbiq olunan üsulları izah edir və frqləndirir

9. Poladların təsnifatını verir və daimi qarışıqların poladın xassələrinə təsirini izah edir

10. Çuqun və polad istehsalında gedən reaksiyaların sürətinə təsir edən amilləri xarakterizə edir

11. Çuqun və poladın tətbiq sahələrini təsvir edir

12. Kimya istehsalatının yeni yaranan anlayışlarını texnoloji proseslərin izahına tətbiq edir

**Dərsin tipi:** yeni materialın öyrənilməsi

**Təlim forması:** siniflə, kiçik qruplarla iş

**Təlim üsulu:** söhbət-müsahibə, dialoji şərh, beyin həmləsi, müzakirə

**İnteqrasiya:** fizika, biologiya

**Fəndaxili əlaqə:** metallar və ərintilərin xassələri

**Formalaşdırılacaq yeni anlayışlar:** domna istehsalatı, çuqun, polad, şixta, flüs, şlak, koloşnik və ya domna qazı, boş süxur, xammalın zənginləşdirilməsi, legirləmə

**Resurs:** slayd( domna peçində çuqunun ərimәsi, oksigen konvertorunda polad əridilməsi), proyektor, komputer, çuqun və polad əşyalar,domna peçinin sökülüb yığılan modeli, dəmir filizinin nümunələri, çuqun və polad istehsalına dair test materialları, məsələ nümunələri.

**İnteraktiv dərsin quruluşu:**

**I mərhələ:** motivasiya, problemin qoyuluşu.Şagirdlərin diqqətini mərkəzləşdirmək və yeni mövzunun öyrənilməsinə maraq oyatmaq

**II mərhələ:** dərsin mövzusu və vəzivələri. Şagirdlərin nəticədə nəyə nail olmalarını anlamaları təmin edilməlidir

**III mərhələ:** zəruri məlumatın alınması. Şagirdlərin tapşırığı icra etmələri üçün təlimatlandırılması

**IV mərhələ:** interaktiv tapşırıq. Materialın praktik mənimsənilməsi

**V mərhələ:** nəticə və ümumiləşdirmə.Materialı möhkəmləndirmək üçün müzakirə

**Dərsin gedişi:**

**I mərhələ:**

Problemli suallar.

1.Domna peçində filizdən metalın alınması metalların ümumi alınma üsullarından hansına aiddir?

2. Domna peçində filizdən çuqunun alınması hansı kimyəvi prosesə əsaslanır?

3. Çuqun tərkibinə görə necə xarakterizə olunur?

4. Domna peçinin məhsuldarlığı hansı faktorlardan asılıdır?

5. Domna peçində kimyəvi reaksiyaların sürətinə təsir edən faktorlar hansılardır?

6. Kimya istehsalatında filizin zənginlədirilməsi nədir?

7. Polad tərkibinə görə necə xarakterizə olunur?

8. Poladdan hazırlanmış məişət əşyalarından hansılarını tanıyırsınız?

9. Çuqunun alçnmasında istifadə olunan filizin tərkibində dəmirin hansı birləşmələri olur?

**II mərhələ:**

Müəllim şagirdlərin metallurgiya, çuqun və polad haqqında məlumatlarını aşkar etdikdən və domna peçində çuqunun və oksigen konvertorunda poladın əridilməsinə dair slaydı nümayiş etdirdikdən sonra dərsin mövzusunu elan edir.

**III mərhələ:**

Müəllim şagirdlərin metallar və ərintilərin xassələrinə dair biliklərinin mövzu ilə əlaqəsini nəzərə alaraq sinifə aşağıdakı sualları verir:

1. Respublkamızda olan hansı filiz yataqlarını tanıyırsınız?
2. Respublkamızda dəmir filizi yatağı hansı rayonun ərazisindədir?
3. Sənayedə metalları almaq üçün yararlı olan təbii birləşmələr necə adlanır?
4. Filizlərdən metallar hansı üsullarla alınır?
5. Metalların alınmasında tətbiq olunan pirometallurgiya üsulu hansı prosesə əsaslanr?
6. Metalların alınmasında reduksiyaedici kimi hansı maddələrdən istifadə olunur?
7. Dəmir filizlərindən hansılarını tanıyırsınız?
8. Dəmir və onun ərintiləri metalların hansı qrupuna aid edilir?
9. Dəmirin hansı ərintilərini tanıyırsınız?
10. Ərinti nədir?
11. Ərintilərin alınması metalların hansı xassəsinə əsaslanır?
12. Ərinti onu əmələ gətirən metallardan hansı xassələrinə görə fərqlənir?

Şagirdlərin qoyulan suallara cavabları müəllimin iştirakı ilə dəqiqləşdirilir. Dərsin növbəti mərhələsinə şagirdlərin fəal iştirakı ilə başlamaq üçün hər biri iki, üç nəfərdən ibarət olmaqla dörd qrup təşkil edir.

**IV mərhələ:**

Müəllim şagirdlərin diqqətini nümayiş olunan slaydlara yönəldərək metallurgiya, çuqun və polad istehsalı haqqında məlumat verir. Sonra isə domna peçinin modeli üzərində onun iş prinsipi ilə şagirdləri tanış edir. Belə ki, domna peçinin çuqun istehsalı üçün hazırlanmas,filizdən çüqunun alınmasında gedən kimyəvi proseslər, çqunun tərkibi, quruluşu və xassələri, çuqundan poladın alınması, poladın tərkibi, quruluşu və xassələri, poladın növləri, çuqun və poladın tətbiq sahələri və s. məsələləri şagirdlərin diqqətinə çatdırır. Müəllim mövzunu izah edərkən materialın məzmununa daxil olan anlayışların çüqun və poladın alınmasında gedən proseslərin şagirdlər tərəfindən qavranılmasında əhəmiyyətini nəzərə alaraq onların əsas əlamətləri, bir-biri ilə və başqa anlayəşlarla əlaqəsi ardıcıl olaraq izah olunur.

Müəllim materialı izah etdikdən sonra qruplara aşağıdakı sualara cavab hazırlamalarını tapşırır.

I qrup

1. Filizdə boş süxuru təşkil edən maddələr hansılardır?
2. Çüqun və polad istehsalı üçün optimal şərait necə olmalıdır?
3. Domna istehsalatı nədir?
4. Dəmirin ərintilərinin hansında karbonun faizlə miqdarı çoxdur?

II qrup

1. Koloşnik və ya domna qazı nədir və ondan hansı məqsədlər üçün istifadə olunur?
2. Dəmiri filizdən reduksiya etmək üçün domna peçində hansı kimyəvi reaksiyalar gedir?
3. Domna peçində koksun rolu nədən ibarətdir?
4. Polad istehsalını fasiləsiz proses adlandırmaq olarmı?

III qrup

1. Əgər emal olunan dəmir filizinin tərkibində dolomit $CaCO_3 .MgCO_3$ olarsa flus kimi hansı maddəni götürmək olar ?
2. Çuqun istehsalını fasiləsiz proses adlandırmaq olarmı?
3. Şixta nədir?
4. Xammalın zənginləşdirilməsi nədir və metallurgiyada hansı metodlara əsaslanır?

IV qrup

1. Şlak nədir, tərkibi və əhəmiyyətinə görə necə xarakterzə olunur?
2. Poladın legirlənməsi prosesini və prakik əhəmiyyətini xarakterizə edin
3. Flüslər və onların metal emalında əhəmiyyətini xarakterizə edin
4. Çuqunun polada emalı hansı usullarla həyata keçirilir

Qrupların suallara verdikləri cavablara görə müzakirə aparılır. Müzakirələrdə sinifin bütün şagirdləri iştirak edirlər. Suallarda ifadə olunan anlayışlar və terminlərin izahı müəllimin köməyi ilə dəqiqləşdirlir, kimya istehsalatı və onunla əlaqəli olan məsələlrə aydınlıq gətirilir.

**Domna istehsalatı** - qara metallurgiyanın dəmir filizi və ya dəmir-filiz konsetratlarından (tərkibində metalın miqdarı çox olan xammal) domna peçlərində çuqun istehsal edən sahəsi.

**Boş süxur** - filizin tərkibində olan əlavə qarışıqlar.Bunlar silisium, alüminium kalsium və maqnezium oksiddən ($SiO_2$, $Al_2O_3$, CaO, MgO) əmələ gələn müxtəlif silikatlardır.

**Xammalın zənginləşdirilməsi** - filizdə dəmirin miqdarının artırılması üçün boş süxurun kənar olunmasıdır. Zənginləşdirmə mineralın və boş süxurun fiziki-kimyıvi xassələrinə əsaslanır. Bu proses müxtəlif metodlarla aparılır. Bunlara qravitasiya, flotasiya, elektromaqnit və s usullar aiddir. Qravitasiya metodu filiz mineralı və boş sqxur hisəciklərinin maye mühitdə sıxlıqdan asılı olaraq ayrılmasına əsaslanır. Flotasiya filiz mineralı və boş süxur hisəciklərinin səthinin fiziki-kimyəvi xassəsinə əsaslanan ayrılma metodudur. Elektromaqnit metodu mineralın və boş süxurun maqnit xassəsinə əsaslanır. Flizin zənginləşdirilməsində geniş tətbiq olunan metoddur.

**Şixta** - metallurgiya və silikat sənayesi müəssisələrində zənginləşdirilmiş filiz xammalı və xüsusi əlavələrin müəyyən nisbətdə hazırlanmış qarışığı. Çuqun istehsalında qarışığın tərkibinə dəmir-filz konsentratı, koks və flüs daxil edilir.

**Flüs** - metallurgiya sənayesində temperaruru aşağı salmaq üçün filizə qatılan qeri-üzvi maddələrdir. Boş suxurda olan çətin əriyən maddələr flüsdə asan əriyən ərintiyə- domna şlakına çevrilir və peçdən çıxarılır. Flüslər fililizin boş süxurunun tərkibinin turş və ya qələvi xassəli olmasından asılı olaraq seçilir. Dəmir filizinin boş süxurunda $SiO_2$ çox olduğuna görə flüs kimi əsasi xassələi materiallardan ($CaCO_3$ -əhəng daşı, $CaCO_3 \cdot MgCO_3$ -dolomit) istifadə olunur. Boş süxur qələvi xassəli olduqda flüs olaraq $SiO_2$ işlədilir.

**Şlak** - filizin boş süxurunda olan maddələrin flüslə brilikdə ərimısindən əmələ gələm məhsuldur. Kimyəvi tərkibinə, əsasən CaO, $SiO_2$ , $Al_2O_3$ oksidlər daxildir, lakin bəzi hallarda maqnezium oksid də MgO olur. Tərkibində fosfor çox olan çuqunun S.Tomasın təklif etdiyi konvertor metodu ilə emalında tomasşlak $Ca_3(PO_4)_2 \cdot CaO$ adlanan əlavə məhsul əmələ gəlir:

$$4P + 5O_2 \rightarrow 2P_2O_5$$
$$P_2O_5 + 4CaO \rightarrow Ca_3(PO_4)_2 \cdot CaO$$

Şlaklar tikinti işlərində və bitkiçilikdə gübrə kimi istifadə olunur.

**Legirləmə -** metallurgiyada müəyyən xassələrə (korroziyaya davamlılıq, bərklik, çətin əriyən) malik ərintilər almaq üçün tətbiq olunan metoddur. Göstərilən xassələrə malik ərintilər almaq üçün metallara müvafiq elementlər daxil edilir. Bü usulla alınan ərintilər legirlənmiş adlanır. Poladı legirləmək üçün ona vanadium, volfram, molibden, xrom, nikel və başqa metallar əlavə olunur. Qoyulan suallar əsasında siniflə aparılan müzakirədən mövzuya dair aşağıdakı nəticələr çıxarılır:

1. Çuqun və polad dəmirin ərintiləridir. Çuqunla müqayisədə poladın tərkibində karbon və digər qarışıqların miqdarı az olur. Çuqun polad istehsalının əsas xammalıdır. Bununla belə polad istehsalında çuquna dəmir qırıntıları və dəmir filizi də əlavə olunur.
2. Çuqun və polad istehsalı oksidləşmə-reduksiya reaksiyalarına əsaslanır. Çuqun isthsalında reduksiyaedici karbon monooksid, polad istehsalında isə ferromanqan və ferrosilisium iştirak edir. Hər iki istehsal prosesində oksidləşdirici oksigendir.

**V mərhələ:**

Müəllim «Metallurgiya. Çuqun və polad istehsalı» mövzusuna dair materialı möhkəmləndirmək məqsədi ilə testlərdən və məsələ həllindən istifadə edir.

**Test 1.** Çuqun istehsalında istifadə olunan filizin turş və ya qələvi xassələi olmasından asılı olaraq istifadə olunan flüsləri seçin.

1- $SiO_2$ ; 2- NaCl ; 3- $CaCO_3$ ; 4- $CuSO_4$ ; 5- $CaCO_3 \cdot MgCO_3$ ; 6- $Hg(NO_3)_2$

A) 1,3,5 ; B) 2,4,6 ; C) 2,3,6 ; D) 4,5,6 ; E) 1,2,3.

**Test 2.** Polad istehsalına aid olan prosesləri seçin.

1- karbon və slisiumun miqdarının çuqunda olduğu kimi saxlanılması
2- karbon və slisiumun miqdarının azaldılması
3- fosfor və kükürdün miqdarının qismən azaldılması
4 - fosfor və kükürdün tam çıxarılması
5- həllolmuş azotun miqdarının artırılması
6- oksidləşdirici kimi oksigendən istifadə olunması

A) 1,3,5 ; B) 2,4,6 ; C) 2,3,6 ; D) 4,5,6 ; E) 1,2,3.

**Cavablar:** 1-A, 2- B

**Məsələ 1**. Dəmirin karbonla ərintisinin 7,27 q. nümunəsi sulfat turşusunda həll edilmişdir. Reaksiya nəticəcində normal şəraitdə ölçülməklə 2,8 litr hidrogen ayrılmışdır. Dəmirin hansı ərintisi götürülmüşdür? Ərintidə karbonun kütlə payını təyin edin. Cavab: çuqun, karbon- 3,7 % .

**Məsələ 2**. 112 ton dəmir almaq üçün tərkibində 10 % qarışığı olan maqnitli dəmir daşından neçə ton götürülməlidir? Filizi reduksiya etmək üçün karbon monooksiddən istifadə edin. Cavab: 154,67 ton.

**Məsələ 3.** 200 q. poladı oksigen axınında yandırdıqda normal şəraitdə ölçülmüş 2,8 litr karbon dioksid alınmışdır.poladın tərkibində neçə qram karbon olduğunu təyin edin. Cavab: 1,5 q.

Müəllim mövzuya dair ümumiləşdirmə apardıqdan sonra qrupların işinə aid əvvəlcədən hazırladığı meyar cədvəli üzrə qiymətləndirmə aparır.

## İstifadə edilmiş ədəbiyyat:

1. V.Abbasov, M.Abbasov, R.Əliyev, A.Əliyev, V.Əliyev, L.Əliyev. Kimya Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. «ASPOLİQRAF». Bakı 2013, səh.60-66, 101-106.
2. A.C.Quliyev, S.R.Qoçaliyeva. Yeddinci sinfin kimya kursunda «Su. Məhlullar» mövzusunun interaktiv təlim metodlarının tətbiqi şəraitində öyrənilməsi. Kimya məktəbdə, № 1, səh.4-13 Bakı, 2016.
3. Г.М.Ченобельская. Основы методики обучения химии. Москва,изд-во «Просвещение» 1987. стр.213-220.
4.Мария С.Пак. Теория и методика обучения химии. Изд-во.ПГПУ им. Герцена.2015, стр. 249-273.

**А.Д.Кулиев, С.Э.Эюбзаде**

## Методика формирования понятий о химическом производстве в процессе изучения темы «металлургия. производство чугуна и стали» в курсе химии девятого класса

**АННОТАЦИЯ**

В статье дается методическая разработка по изучению темы «Металлургия. Производство чугуна и стали » в условиях применения интерактивных методов обучения. В начале статьи коротко изложены цель и задачи изучения темы в курсе химии девятого класса. По содержанию данной темы определены система понятий о химическом производстве и последовательность их формирования.

Для реализации формирования понятий о химическом производстве составлен конспект урока по теме «Металлургия. Производство чугуна и стали», который может быть полезным учителям химии и студентам педагогических университетов в практической деятельности.

**A.D. Kuliyev, S.A. Ayyubzade**

## Technique of concept of formation about chemical produktion in the process of studying of the topic «metallurgy. production of cast iron and steel» in the course of cemistry for ninth grade

**SUMMARY**

The article gives the methodical development on the study of theme of “Metallurgy. Pro-duction of cast iron and steel.” Under the condition of use of interactive teaching methods. At the beginning of this article there is the outlining of purpose and objectives of the study topics in the course of ninth grade Chemistry.

The content of the topic defined system of concepts of the chemical industry made an outline of the lesson on “Metallurgy. Production of cast iron and steel”, which could be useful for chemistry course teachers and students of pedagogical universities in the practical working.

**Açar sözlər:** filiz, zənginləşdirmə, flüs, şixta, şlak, legirləmə

**Ключевые слова:** руда, обогащение, флюсы, шихта, шлаки, легирование

**Key words:** ore, enrichment, fluxes, batch, slag, alloying